**“Kinematoqrafiya haqqında”, “Kütləvi informasiya vasitələri haqqında”, “Nəşriyyat işi haqqında”, “Televiziya və radio yayımı haqqında”, “İctimai televiziya və radio yayımı haqqında”, “Telekommunikasiya haqqında” və “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Kinematoqrafiya haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 8, maddə 489; 2001, 12, maddə 736; 2005, 8, maddə 684; 2007, 10, maddə 938) 7-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci hissədən “, tamaşaçı auditoriyasının yaş kateqoriyalarının müəyyənləşdirilməsi” sözləri çıxarılsın;

1.2. ikinci hissəyə “yayımı və nümayişi” sözlərindən sonra “bu Qanunun, “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanununun və kinematoqrafiya sahəsində digər normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla” sözləri əlavə edilsin;

1.3. ikinci hissə müvafiq olaraq üçüncü hissə hesab edilsin və aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Kino və videofilmlərin yaşa görə təsnifatlaşdırılması “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq həyata keçirilir.”.

~~**Maddə 2.** “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 2, maddə 82; 2001, 12, maddə 736; 2002, 3, maddə 116, 5, maddə 245; 2004, 2, maddələr 57, 58; 2005, 4, maddə 278; 2007, 8, maddə 752, 11, maddə 1079; 2009, 4, maddə 212, 8, maddə 611; 2010, 3, maddə 172; 2015, 2, maddə 82, 11, maddələr 1258, 1292; 2016, 1, maddə 40, 5, maddə 837, 12, maddə 1986; 2017, 12 (I kitab), maddə 2254; 2018, 1, maddə 16, 5, maddə 891, 6, maddə 1166; 2019, 3, maddə 376) aşağıdakı dəyişikliklər edilsin:~~[1]

~~2.1. 10-cu maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:~~

~~“Uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiyanın istehsalçısı və yayıcısı “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə riayət etməyə borcludur.”;~~

~~2.2. 60-cı maddənin birinci hissəsinin 5-ci bəndinə “efirə verdikdə” sözlərindən sonra “, o cümlədən “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tələblərini pozduqda” sözləri əlavə edilsin.~~

**Maddə 3.** “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 8 (I kitab), maddə 581; 2002, 12, maddə 709; 2004, 7, maddə 505; 2007, 10, maddə 938; 2008, 5, maddə 343; 2013, 5, maddə 483; 2017, 2, maddə 143; 2019, 3, maddə 377) 20-ci maddəsinə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

“Uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiyanın istehsalçısı və yayıcısı “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə riayət etməyə borcludur.”.

~~**Maddə 4.** “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 10, maddə 583; 2004, 1, maddə 10; 2005, 4, maddə 278, 6, maddə 469; 2006, 11, maddə 932, 12, maddə 1005; 2007, 6, maddə 560, 8, maddə 749, 11, maddə 1053; 2009, 6, maddə 394; 2010, 7, maddə 600; 2011, 2, maddə 70; 2015, 4, maddə 354; 2016, 12, maddə 1987; 2018, 2, maddə 153, 6, maddə 1167, 12 (I kitab), maddə 2477) aşağıdakı dəyişikliklər edilsin:~~[2]

~~4.1. 11.5.3-cü maddəyə “onların baxa biləcəyi vaxtda göstərilməməsinə” sözləri “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan vaxtda göstərilməməsinə (xüsusi dekoderlər vasitəsilə ödənişli əsasda həyata keçirilən informasiya məhsullarının telekanallarda yayımı istisna olmaqla) və həmin Qanunun teleradio yayımı sahəsində digər tələblərinin icrasına” sözləri ilə əvəz edilsin;~~

~~4.2. 33-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:~~

~~“Uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə əlaqədar olaraq onların zərərli informasiyadan qorunması “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir.”;~~

~~4.3. 35.14-cü maddədə “aşağıdakı tələblərə” sözləri “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla aşağıdakılara” sözləri ilə əvəz edilsin;~~

~~4.4. aşağıdakı məzmunda 40.2.2-2-ci maddə əlavə edilsin:~~

~~“40.2.2-2. informasiya məhsulunun “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada yaşa görə təsnifatlaşdırılmasını təmin etmədən, o cümlədən həmin Qanunla müəyyən edilmiş hallar istisna olmaqla informasiya məhsulunu müvafiq yaş kateqoriyasına uyğun işarələmədən ölkə ərazisində yayımlamamaq;”.~~

**Maddə 5.** “İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 11, maddə 888; 2006, 3, maddə 224, 12, maddə 1005; 2007, 5, maddələr 435, 442, 12, maddə 1218; 2009, 10, maddə 772; 2011, 2, maddə 70; 2012, 9, maddə 839; 2015, 5, maddə 493, 11, maddə 1281; 2016, 12, maddə 1988; 2018, 6, maddə 1170, 12 (I kitab), maddə 2478; 2019, 4, maddə 599) 7-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 7.0, 7.0.1 – 7.0.10-cu və 7.1-ci maddələr müvafiq olaraq 7.1, 7.1.1 – 7.1.10-cu və 7.2-ci maddələr hesab edilsin;

5.2. 7.1.10-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7.1.11-ci maddə əlavə edilsin:

“7.1.11. uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiyanın yayılması ilə bağlı “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə riayət edilməsi.”.

**Maddə 6.** “Telekommunikasiya haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 8, maddə 685; 2006, 11, maddə 932; 2007, 5, maddə 442, 11, maddə 1053; 2016, 6, maddə 969, 12, maddə 1989; 2017, 3, maddə 346; 6, maddələr 1024, 1046, 7, maddə 1266, 12 (I kitab), maddə 2255; 2018, 6, maddə 1161; 2019, 4, maddə 588, 7, maddə 1177) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 33.1.3-1-ci maddədə “sağlamlığına və inkişafına ziyan vuran” sözləri “zərərli” sözü ilə əvəz edilsin və “istifadə imkanlarını” sözlərindən sonra “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla” sözləri əlavə edilsin;

6.2. aşağıdakı məzmunda 33.1.9-5-ci maddə əlavə edilsin:

“33.1.9-5. “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə riayət etmək;”;

6.3. 34.1.2-1-ci maddədə “sağlamlığına və inkişafına ziyan vuran” sözləri “zərərli” sözü ilə əvəz edilsin və “qorunması üçün” sözlərindən sonra “texniki proqram və avadanlıq vasitələrinin tətbiqi ilə müvafiq” sözləri əlavə edilsin.

**Maddə 7.** “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 2, maddə 75; 2017, 1, maddə 9; 2018, 12 (I kitab), maddə 2479) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 11.1.3-cü maddəyə “adlarını” sözündən sonra “, həmçinin “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq tədbirin keçirilməsi barədə afişaların və digər elanların üzərində tamaşanın aid edildiyi yaş kateqoriyasına dair işarəni” sözləri əlavə edilsin;

7.2. 11.1.5-ci maddəyə “yerini” sözündən sonra “, o cümlədən “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq tamaşanın aid edildiyi yaş kateqoriyasına dair işarəni” sözləri əlavə edilsin.

**Maddə 8.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 noyabr 2019-cu il
1692-VQD

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**) ilə 2-ci maddə ləğv edilmişdir.

[2] 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**) ilə 4-cü maddə ləğv edilmişdir.